RATING ACADEMY

HOMEROS
E-ISSN: 2667-4688

**Homeros**

Cilt / *Volume* **2,** Sayı / *Issue* **1, 2019**, *pp.* **1-10**
E - ISSN: **2667-4688**
URL: http://www.ratingacademy.com.tr/ojs/index.php/homeros
DOİ: https://doi.org/10.33390/homeros.2.001

# AZƏRBAYCAN VƏ RUS UŞAQ ƏDƏBİYYATININ TƏŞƏKKÜLÜ VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ

## *THE ESTABLISHING OF AZERBAIJANI AND RUSSIAN CHILDREN'S LITERATURE, IT'S DEVELOPMENT STAGES*

**Səməngül QAFAROVA ***

** PhD on phylology, lecturer., Baku Slavic Universite, Azerbaycan*
*E-mail:gulhusu01@gmail.com*
*ORCID ID: https://orcid.org/0000-0002-3548-8937*

*Gəliş Tarixi: 1 Oktyabr 2018; Qəbul Tarixi: 27 Dekabr 2018*
***Received:1 October 2018; Accepted: 27 December 2018***

***ÖZET***

*Məlum olduğu kimi hər bir predmetin tarixi ilə nəzəriyyəsi ayrılmazdır. Əgər biz bu günkü uşaq ədəbiyyatının daha dolğun mənzərəsini canlandırmaq və gələcək inkişafına istiqamət vermək istəyiriksə, mütləq onun keçmişinə nəzər salmalıyıq. Azərbaycan uşaq ədəbiyyatı bu günkü nailiyyətlərinə görə özünün keçmişinə borcludur. Çünki o, əvvəlki ənənənin özülü üzərində dayanır və onun davamı kimi inkişaf edir. Elə buna görə də, uşaq ədəbiyyatımızın keçmişini onun təşəkkül dövründən başlayaraq öyrənməyə zəruri ehtiyac hiss olunur.*

*XIX əsrin axırları – XX əsrin əvvəllərində rus və Azərbaycan inqilabçı demokratları ədəbiyyatın və mədəniyyətin bu təlatümlü dövründə uşaq ədəbiyyatının inkişafına düzgün istiqamət vermək istəyirdilər. Belə hesab edirdilər ki, yeni insan, yeni vətəndaş tərbiyəsində uşaq ədəbiyyatının istiqaməti sosialist realizmi yaradıcılıq metoduna əsaslanın, proletar ədəbiyyatının bir qolu kimi fəaliyyət göstərməlidir. Lakin ictimai-siyasi quruluşun təsirindən asılı olmayaraq uşaq ədəbiyyatı da ziyalı sənətkarların qələmlərinin gücü ilə inkişafını davam etdirirdi.Uşaq ədəbiyyatının məqsəd və vəzifəsindən göründüyü kimi, bu ədəbi aləm müxtəlif elmlərlə: pedaqogika, psixologiya, etika, estetika, incəsənət, təbabət və dəqiq elmlər – əlaqəli şəkildə inkişaf edir. Yeni nəslin hərtərəfli inkişaf etməsində, kamala çatmasında hər birinin özünəxas yeri var.*

***Anahtar Kelimeler:*** *uşaq ədəbiyyatı, yeni nəsil, təşəkkül, istiqamət, yaradıcılıq.*

***ABSTRACT***

*As is known, the history and the theory of each object are indivisible. If we want to form more complete picture of modern children's literature and direct it's future development, we must consider its past first of all.*

*At the end of the XIX - beginning of XX century, in most difficult period of literature and culture Russian and Azerbaijani revolutionary democrats wanted to give a right direction to the*

*development of children's literature. Official ideology considered that activity of the new human, new citizen upbringing, the direction of child literature shoud be aimed on the new civilian education and children’s literature should be based on the socialist realism's creative method, acting as a branch of proletarian literature. As it is seen from the purpose and the aims of children's literature, this literary world develops in various directions, e.g. pedagogy, psychology, ethics, aesthetics, art, medicine and accurate sciences. Everyone has a unique place in the overall development of the new generation.*

***Keywords:*** *children's literature, new generation, creativity, direction, creativity.*

---

## 1. GİRİŞ

Ədəbiyyat - tərbiyəvi, əxlaqi, insani hisslərin yaranmasının mənbəyidir. Ədəbiyyat qüdrətli tərbiyə vasitəsidir. Ədəbiyyatın tərbiyəvi təsir dairəsi çox geniş olmaqla yanaşı, həyat materialları olduqca zəngindir. Həyat materiallarını, reallıqları, gerçəkliyi, vətənpərvərliyi, dostluğu, yoldaşlığı, ədəbi qəhrəmanların mənəvi zənginliyini, əxlaqi saflığını,duyumlarını əks etdirən ədəbiyyatdır. Bədii ədəbiyyatın tikinti materialı hesab edilən sözlərin köməyi ilə bunlar meydana gəlir. Elə sözlərdən istifadə olunmalıdır ki, bu sözlər yeniyetmə və gənclərin qəlbini riqqətə gətirsin. Mirzə Şəfi sözü yüksək qiymətləndirir, onun gücünə, qüvvəsinə böyük inam bəsləyir. Hafizin şerlərinə işarə ilə dediyi bu sözlərlə diqqəti cəlb edir: “Hafizin sözləri bizi inandırdı ki, Şirazdan gözəl diyar yoxdur. O doğma şəhərini dostlarının gözündə söz vasitəsilə almaza çevirə bilmişdir.”

Bədii ədəbiyyat milyonlarla adam üçün sevinc və ilham mənbəyi olmalı, onların iradəsini, duyğularını və fikirlərini ifadə etməli, onları ideyaca zənginləşdirən və əxlaq cəhətdən tərbiyə edən vasitə olmalıdır.

## 2. ƏSAS MƏTN



Uşaq ədəbiyyatı da, bədii ədəbiyyatın bir qoludur. Uşaq ədəbiyyatının başlıca vəzifəsi gənc nəslin sağlam, düzlük, doğruçuluq, əməksevərlik, yoldaşlıq kimi yüksək mənəvi keyfiyyətlərə malik hisslərin yaranmasına yardımçı olmaqdır. Bu ədəbiyyat gənc nəslin ideyasında, amalında, ruhunda bir inqilab etməlidir.

Uşaq ədəbiyyatı uşaqları zəngin mənəvi və estetik zövqə malik, zəmanəsinin ən humanist biliklərinə yiyələnən yetkin bir insan kimi tərbiyə etməlidir. Bu insan öz xalqının, torpağının zəngin tarixi keçmişinə, ədəbiyyatına bələd olmalıdır. Bu günün nəhəng, məsuliyyətli, hər saniyəsi bir tarix olan zamanı ilə qoşa addımlamalı, gələcəyin böyük quruculuq işlərində yaxından iştirak etməlidir. Torpaqlarımızın geri qaytarılması yolunda aparılan mübarizədə cəsarətlə iştirak etməkdə ilham verən bir mənbə olmalıdır.

Uşaq ədəbiyyatı bəşəriyyətin yaratmış olduğu bütün maddi və mənəvi sərvətləri yeni nəslə öyrətməli, onları bu sərvətin əsl varisi kimi tərbiyə etməlidir. Rus ədibi Qorkı qeyd edirdi ki, uşaqlara yaşadıqları dövrün həqiqətini söyləmək, digər tərəfdən keçmişin dəhşətli rəzalətlərini satirik boyalarla açıb göstərmək lazımdır. Bütün bu göstərdiklərimiz Azərbaycan uşaq ədəbiyyatının ədəbi və pedaqoji prinsiplərinin əsasını təşkil edir. Azərbaycan uşaq ədəbiyyatının inkişafı və təşəkkülü, qədim tarixi ənənələrə bağlansa da, elə də keçmiş tarixə bağlı deyildir (Антология русской литературы, 2008).

Azərbaycan uşaq ədəbiyyatının inkişafı XIX əsrin birinci yarısında maarifçi realist ədəbiyyatının yaranmasından başlamış, əsrimizin 20-ci illərinə qədərki mürəkkəb və ziddiyyətlə dolu, uşaq ədəbiyyatı baxımında olduqca zəngin məhsuldar bir dövrü əhatə edir. Bizdə uşaqlara yarar əsərlərin tarixi bir neçə əsr əvvələ gedib çıxırsa, sistemli, öz müstəqil hüquq və qanunları spesifikası ilə fərqlənən uşaq ədəbiyyatı XIX əsrin sonlarında təşəkkül tapır.

Uşaq ədəbiyyatı haqqında ilk mülahizələr isə hələ inqlabdan əvvəl söylənmişdir. Əlbəttə, bu sözün əsl mənasında uşaq ədəbiyyatının tədqiqi deyildi. Uşaq ədəbiyyatının mövcud nümunələri haqqında söylənilmiş ilk qənaətlər idi. Cəmiyyət böyüməkdə olan nəslin timsalında öz ömrünü davam etdirir, həmin nəslin tərbiyəsi, əxlaqı, mənəviyyatı, davranış normaları, dünyagörüşü, əqidəsi, arzu və istəkləri və b. keyfiyyətləri diqqət mərkəzində durur. Həmin keyfiyyətlərin işıqlı, müsbət istiqamətə yönəldilməsində uşaqlar üçün yaradılmış mənəvi sərvətdən - bədii əsərlərdən də mühüm vasitə kimi istifadə edilir. Azyaşlılar və gənclər üçün yazılmış məzmunlu, dolğun, sağlam ruhlu əsərlər uşaqların mənəvi estetik zövqünü oxşayır, fantaziya və xəyallarının hüdudlarını genişləndirir, əxlaqi-tərbiyəvi cəhətdən kamilləşməsinə, dünya duyumunun, həyatı idrak qabiliyyətinin inkişafına, vətənpərvər, nikbin, humanist və beynəlmiləlçi kimi yetişməsinə kömək edir, həyat və mübarizənin həqiqi yolunu onlara öyrədir. 20-30-cu illərdə də uşaq ədəbiyyatının tarixinə onun klassik nümayəndələrinin yaradıcılığına maraq artır, tənqidçi və ədəbiyyatşünas alimlər uşaq .yazıçılarının diqqətini Azərbaycan uşaq ədəbiyyatının inqilabaqədərki nailiyyətlərinə cəlb edir, onları keçmiş mədəni irsdən yaradıcılıqla bəhrələnməyə çağırırdılar. Bu illərdə bəzən uşaq ədəbiyyatının keçmiş nailiyyətlərinə vulqar-sosioloji münasibət mövcud olsa da, bütövlükdə ədəbi tənqiddə tam düzgün olan belə bir meyl hakim idi ki. inqlabdan əvvəl və sonra yaradılmış olan cocuq ədəbiyyatı məhsulları içərisində bu gün də yararlı və yenidən nəşr edilməsi faydalı əsərləri meydana çıxarmaq üçün cocuq ədəbiyyatımızın tarixi diqqətlə araşdırılıb elmi əsaslar üzrə öyrənilməlidir.

Uşaq ədəbiyyatı haqqında daha çox F. Köşərlinin mülahizələri diqqəti cəlb edirdi. Bu mülahizələr A.O. Çernyayevskinin "Vətən dili" dərsliyinin 7-ci nəşri ilə əlaqədar yazdığı məqalədə və digər oçerk məqalələrində, ən çox isə müasirlərinə yazdığı məktublarında toplanmışdır. Bütün bunlar sübut edir ki. Firudin bəy Köçərli uşaq əsərləri yazan müəlliflərlə daim sıx əlaqə saxlamış, onların əsərlərinin ilk tənqidçisi olmuş, ilk və obyektiv fikirləri söyləmişdir. Sonra Ə. Kazımın, M.K.Ələkbərlinin məqalələrində, C.Xəndanın tədqiqatlarında bu sənətkarların uşaq əsərləri ayrıca təhlil obyektinə verilmiş, onların ideya-məzmun, mövzu, dil və üslub xüsusiyyətləri yığcam təhlil olunmuşdur. Bununla belə uşaq ədəbiyyatının tarixinin obyektiv şəkildə tədqiqinə doğru atılan ilk və ciddi addımları 50-60-cı illərə aid etmək lazım gəlir. Bu isə Azərbaycan uşaq ədəbiyyatının ilk yaradıcılarından M.Ə.Sabir, A.Şaiq, A.Səhhət, S.S.Axundov, S.Qənizadənin həyat və yaradıcılığının xüsusiyyətlərini əhatə edən tədqiqatların məhz bu illərdə yaranması ilə əlaqədardır. Bu sahədə daha geniş tədqiqatlar aparmış mütəxəssislərimiz də vardır. K.Talıbzadə sadəcə təsvir yolu ilə getməmiş, A.Səhhətin uşaq şerlərinin mövzu dairəsi, ideyası, sənətkarlıq keyfiyyətləri haqqında indi də öz elmi dəyərini saxlayan mülahizələr söyləmişdir. Tədqiqatçı şairin bu sahədəki yaradıcılığına uşaqların psixoloji tələbləri baxımından yanaşmış və A.Səhhətin uşaqlar üçün yazdığı əsərləri iki hissəyə ayrılmışdır. 50-60-cı illərdə uşaq ədəbiyyatı təkcə bu və ya digər sənətkarın yaradıcılıq fəaliyyətinin bir hissəsi kimi yox, eyni zamanda xüsusi sahə kimi ədəbiyyatşünasların diqqətini cəlb edir. Ə.Mirəhmədovun "Dəbistan" adlı məqaləsi isə uşaq mətbuatı tarixinin öyrənilməsi aspektində uşaq ədəbiyyatı məsələlərinə də diqqət edilməsi təşəbbüsünün meydanı 60-cı illərdə daha da genişlənir. Bu istiqamətdə P.Allahverdioğlu, S.Bəktaşi, Ə.Məmmədov və digər tədqiqatçılar müəyyən konkret fikirlər söyləmişlər (Məmmədov Ə., 1977).

70-ci illərdə Azərbaycan uşaq ədəbiyyatının tədqiqi və öyrənilməsi sahəsində bir sıra dövlət əhəmiyyətli tədbirlər görüldü. Yeni nəşrlərin meydana gəlməsi onun inkişafına əhəmiyyətli dərəcədə təsir göstərdi. Bu illərdə Azərbaycan uşaq ədəbiyyatının öyrənilməsində müəyyən məhsuldarlıq nəzərə çarpmağa başladı. Uşaq ədəbiyyatının müxtəlif məsələlərinin tədqiqi və təbliğinə həsr edilmiş məqalələr bu sahədə qiymətli təşəbbüs oldu.

Qarşılıqlı ədəbi əlaqə ilə bədii tərcümə problemlərinə, xüsusilə Azərbaycan - rus ədəbi əlaqələrinə həsr olunmuş tədqiqat və araşdırmalarda milli uşaq ədəbiyyatımızın yaranması

inqlaba qədərki dövrdə inkişafı barədə maraqlı müşahidə mülahizələrdə az deyildi. Bunlardan əlavə, F.Qasımzadə, Mir Cəlal, C.Xəndan, K.Məmmədov, M.Mustafayev, S.Hüseynov, K.Talıbzadə, M.Vəliyev, S.Vəlixanov, F.Kərimova və digərlərinin uşaq ədəbiyyatı sahəsində müəyyən elmi fəaliyyətləri olmuşdur. Lakin bütün bu araşdırmalar, əldə edilmiş nəticələr nə qədər qiymətli olsa da, uşaq ədəbiyyatının öyrənilməsi baxımından qənaətbəxş sayıla bilməz. İndiyə qədər Azərbaycan uşaq ədəbiyyatının haqqında danışılan dövri mükəmməl elmi araşdırmalar obyekti olmamışdır. Uşaq ədəbiyyatı nümunələri küll halında tədqiqə cəlb edilməmiş, inkişafın spesifik xüsusiyyətləri, tədqiq olunan dövrün özünəməxsus cəhətləri, tarixi kökləri onun inkişafına təkan verən əsas amillər müəyyənləşdirilməmiş, ideya məzmunu, mövzu dairəsi, surətlər aləmi tam şəkildə öyrənilməmiş, sənətkarlıq xüsusiyyətləri haqqında əsaslı tədqiqat aparılmamışdır. Bu isə o deməkdir ki, XIX əsrin sonu, XX əsrin əvvəllərindəki uşaq ədəbiyyatının sistemli tədqiqi Azərbaycan ədəbiyyatşünaslığının qarşısında duran və həllini gözləyən zəruri problemlərdəndir (Bəktaşi S., 1965).

Məlum olduğu kimi hər bir predmetin tarixi ilə nəzəriyyəsi ayrılmazdır. Əgər biz bu günkü uşaq ədəbiyyatının daha dolğun mənzərəsini canlandırmaq və gələcək inkişafına istiqamət vermək istəyiriksə, mütləq onun keçmişinə nəzər salmalıyıq. Azərbaycan uşaq ədəbiyyatı bu günkü nailiyyətlərinə görə özünün keçmişinə borcludur. Çünki o, əvvəlki ənənənin özülü üzərində dayanır və onun davamı kimi inkişaf edir. Elə buna görə də, uşaq ədəbiyyatımızın keçmişini onun təşəkkül dövründən başlayaraq öyrənməyə zəruri ehtiyac hiss olunur.

Öz soy-kökü üzərində boy atan ədəbiyyat və mədəniyyət, milli sədləri parçalayaraq, misli görünməmiş qarşılıqlı, güclü əlaqələr yaradan hər bir xalq, vahid bir sərvət nüfuzu qazanır.

Əvvəlcə Rusiyada və bir neçə il sonra Azərbaycanda baş tutan dövlət çevrilişi silah gücünə yeni bir dövlət qurdu. Hər iki ölkədə xeyli insan itkisi baş verdi. Görkəmli rus yazıçısı V.Q.Korolenko (1853-1921) bu mürəkkəb və təzadlı dövrü çox acı faktlarlada izah edirdi. Bu illərdə hər iki xalq ortasında qırğınlar, sürgünlər oldu. Analoqu olmayan bu dövlət «yeni insan» ideyasını irəli sürərək təbii yaradıcılıq prosesinin inkişaf ardıcıllığını pozdu: siyasi-ideoloji, mənəvi-əxlaqi tərbiyə məsələlərini bütün sahələrdə əldə rəhbər tutdu. Bu illərdə ədəbiyyat və mənəviyyatın inkişafı davamlı olsa da, rus, Azərbaycan yazıçı, şairləri çox əzablara, iztirablara, işgəncələrə məruz qaldılar. Hakimiyyət tələblərini qəbul etməyənlər sürgünlər və təzyiqlərlə üzləşdilər. Bu məhdud çərçivəli siyasi sistem bütün ədəbi sənətkarlardan «inqilab» mövzusuna üstünlük verməyi tələb edirdi. Öz fikirlərini ideya-nəzəri baxımdan əsaslandırır, ictimai-siyasi rolu və əsas vəzifələri müəyyənləşdirirdi. İzahı çətin olan bu dövlətin hakimiyyətə gəlməsi yollarını, hətta L.N.Tolstoydan da əsərlərində əks olunmasını tələb etmişdilər.



SSRİ-nin yaradılmasından (1922, 30 dekabr) sonra isə imperiya tərkibinə daxil edilmiş xalqlar ədəbi prosesdə bir ideologiya ətrafında birləşdirildilər. Əsasən, «Sovet ədəbiyyatı» adı ilə təqdim olunan bu ədəbi inkişaf mərhələsinə «beynəlmiləlçilik» donu geydirən yazıçı-tənqidçi A.Lunaçarski (1875-1933) pafosla yazırdı: «Ədəbiyyat haqqında söhbət gedəndə biz, ümumiyyətlə, Lenin milli siyasəti nəticəsində yüksək çiçəklənmə mərhələsinə çatan bütün sovet xalqları ədəbiyyatını nəzərdə tuturuq».

O cümlədən, rus şairi V.V.Mayakovski (1893-1930) yeni yaranmış bu ədəbi prosesə qiymət verərək qeyd edirdi: «Mədəniyyətlərin bir-birinə bənzəməsi yüz milyonların on milyonlara zorakılıq etməsi demək deyildir. Bu, müxtəlif dillərdə eyni bir kommunizm mədəniyyəti quran zəhmətkeş bəşəriyyətin ideyalarının müştərəkliyi deməkdir» (Политковская Л., 2009). Lakin heç bir hüquqi əsası olmayan, siyasi don geydirilərək ortaya atılmış bu fərdi şüarvari mülahizələr heç də nəzərdə tutulmuş nəticəni vermirdi. Bolşevik hakimiyyətinin həyata keçirdiyi siyasi ideologiya inkişafın bütün sahələrinə, o cümlədən,

qədim tarixə malik olan, xüsusilə XX əsrin əvvəllərindən yeni yaradıcılıq cığırı ilə inkişaf etmiş, gerçək həyat hadisələrinə realist baxışlarına və janr əlvanlığına görə ictimaiyyətin nəzər-diqqətini cəlb etmiş, çoxsaylı oxucuların rəğbətini qazanmış milli ədəbiyyatımıza da öz mənfi təsirini göstərdi. Qurulmuş imperiyanın ideya-siyasi baxışlarına uyğun olan yeni ədəbiyyatın yaradılması əsas məqsəd kimi qarşıya qoyulduğuna görə, imperiya tərkibinə zorla daxil edilmiş xalqların qədim klassik ədəbi irsi və bu dövrə qədərki inkişaf prosesi nəzərə alınmadı. SSRİ adı altında məharətlə maskalanmış rus hökuməti müvafiq azsaylı xalqları imperiya tərkibinə daxil etmək yolu ilə ölkənin ictimai-siyasi həyatını kəskin şəkildə dəyişdirdiyi kimi, həmçinin, mədəni həyatına da nüfuz etməyə, millilikdən uzaq olan monomədəniyyətin (monoədəbiyyatın) yaradılmasına nail olmağa çalışırdı. Bunun üçün sadədən mürəkkəbə doğru planlı inkişaf yolu müəyyən edilmişdi. Xüsusilə, yeni nəsli mövcud ifrat ideologiyanın tələblərinə tabe etdirmək, uşaq və gənclərin məqsədli tərbiyəsi üçün yeni forma və məzmunlu ədəbiyyatın yaranış istiqamətini müəyyən etmək başlıca məqsədlərdən biri idi. Hakimiyyət «yeni insan yaratmaq» üçün ədəbiyyatı mühüm bir məfkurə alətinə çevirmişdi. Bu təzadlı ədəbi prosesin yaranışı dövründə uşaq ədəbiyyatı xüsusi təsirə məruz qalmışdı. Sovet ədəbiyyatının mərhələli inkişaf istiqaməti mövcud real həyatın tələblərinə deyil, əsasən Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin müəyyən etdiyi siyasi-ideoloji qərarlara əsaslanırdı. Bu ideologiyaya canla-başla xidmət edən müəlliflərin əsərləri kütləvi tirajla çap olunur, pafoslu ibarələrlə təriflənir, ali dövlət mükafatlarina təqdim olunurdu .

Sonrakı illərdə «Gənc işçi» (1923), «Komsomol» (1926-1930), «Pioner işçisi» (1927), «Gənc bolşevik» (1930-1941) adlı jurnallar müəyyən fasilələrlə nəşr olundu. Bunlar da yeni nəsli siyasi təşkilatların fəaliyyəti ilə tanış edirdi.

XIX əsrin axırları – XX əsrin əvvəllərində rus və Azərbaycan inqilabçı demokratları ədəbiyyatın və mədəniyyətin bu təlatümlü dövründə uşaq ədəbiyyatının inkişafına düzgün istiqamət vermək istəyirdilər. Belə hesab edirdilər ki, yeni insan, yeni vətəndaş tərbiyəsində uşaq ədəbiyyatının istiqaməti sosialist realizmi yaradıcılıq metoduna əsaslanın, proletar ədəbiyyatının bir qolu kimi fəaliyyət göstərməlidir. Lakin ictimai-siyasi quruluşun təsirindən asılı olmayaraq uşaq ədəbiyyatı da ziyalı sənətkarların qələmlərinin gücü ilə inkişafını davam etdirirdi. M.Qorki uşaqlar üçün yazmağın çox çətin olduğunu qeyd edirdi. O, göstərirdi ki, müxtəlif yaşlı uşaqların maraq dairəsini nəzərə almaqla, estetik zövqünü öyrənməklə, uşaq aləminə dərindən bələd olmaqla gözəl əsərlər yaratmaq olar. Burada, həm də ictimai mühit, inkişaf, idrak, zövq, bilik dairəsi, nitq önəmli olmalıdır.



«Bununla belə bilməliyik ki, uşaqlar yaş etibarı ilə daima dəyişilir, onlar dövrdən-dövrə, nəsildən-nəslə dəyişilir. Bəşəriyyət də böyüyür, kamilləşir. Bax ona görə də böyüklərin özləri üçün yaratdıqları qədim əfsanələr indi, demək olar ki, bütünlüklə uşaq nağıllarına çevrilmişdir» (Мометов С., 1974).

Uşaq ədəbiyyatının məqsəd və vəzifəsindən göründüyü kimi, bu ədəbi aləm müxtəlif elmlərlə: pedaqogika, psixologiya, etika, estetika, incəsənət, təbabət və dəqiq elmlər – əlaqəli şəkildə inkişaf edir. Yeni nəslin hərtərəfli inkişaf etməsində, kamala çatmasında hər birinin özünəxas yeri var.

Uşaq ədəbiyyatının öz spesifikası vardır. Uşaq ədəbiyyatı anlayışı bilavasitə uşaqlar üçün yazılan, bədii, elmi-bədii əsərləri özündə birləşdirən yaradıcılıq sahəsi olsa da, yalnız bunlarla məhdudlaşmır. Buraya həmçinin, böyüklər üçün yazılan, lakin uşaqların da mütaliə edə biləcəyi əsərlər də daxil ola bilər. Bu əsərlər uşaqların mənəvi-əxlaqi və estetik tərbiyəsində, dünyagörüşünün genişlənməsi və formalaşmasında əsas rol oynayır. Məsələn, dünya miqyasında M.Servantesin "Don Kixot" romanı həm böyüklər, həm də uşaqlar tərəfdən maraqla oxunur. Yaxud C.Sfivtin "Quliverin səyahəti", D.Defonun "Robinzon Kruzonun macəraları" əsərlərində hadisələrin macəra tərzində qoyulması, maraqlı süjet və kompoziyası

uşaqları bu əsərləri oxumağa cəlb edir. Məlumdur ki, V.Hüqonun "Səfillər" romanı uşaqlar üçün yazılmamışdır. Lakin uşaq obrazı kimi təsvir olunan Kozettanın və Qavroşun həyatı və fəaliyyəti haqqındakı bədii mətn oxu üçün ayrılıqda veriləndə, uşaqların hədsiz marağına səbəb olur. Bəzən uşaq ədəbiyyatı ədəbi yaradıcılığın asan sahəsi kimi başa düşülür. Belə yalnış təsəvvür yaranır ki, adi həyat hadisələrindən sadə və aydın bir dildə danışmaqla uşaq əsəri yaratmaq mümkündür. V.Q.Belinski uşaq ədəbiyyatını bu cür təsəvvür edənlərə qarşı çıxaraq yazırdı: "Uşaq yazıçısının yaranması üçün çox, olduqca çox şərtlər vardır: nəcib, sevən, diqqətli, sakit, körpəcə-sadədil bir qəlb, yüksək məlumatlı bir idrak, predmetlərə aydın bir baxış, yalnız canlı bir təsəvvür deyil, həm də canlı, şairanə bir xəyal, hər şeyi canlı, zəngin surətlər halında təsəvvür etməyə qabil bir xəyal lazımdır. Aydındır ki, uşaqlara qarşı məhəbbət, uşaq yaşının tələb, xüsusiyyət və təfərrüatını dərindən bilmək də ən mühüm şərtlərdəndir. "Uşaq ədəbiyyatının spesifikasını yalnız mövzu müəyyən etmir. Yəni nədən yazmaq problemi hələ bu ədəbiyyatın əsas cəhəti deyildir. Uşaq ədəbiyyatında həyatın bütün sahələri əks olunmalıdır. Belə ki, uşaq ədəbiyyatında necə yazmaq çox mühüm məsələdir. Görkəmli rus şairi Aqniya Barto (1906-1982) qeyd edirdi ki, uşaqlara hər şeydən, həyatın ən dərin və mürəkkəb problemlərindən danışmaq olar, lakin gənc oxucunun bu problemləri aydın və asan başa düşməsi üçün müəllif xüsusi istedada malik olmalıdır. O, həmçinin uşaq ədəbiyyatında əyləncəliliyin və ciddiyyətin bi-birinə zidd olmamasını qeyd edərək, uşaq ədəbiyyatının mənaca, məzmunca ciddi, formaca əyləncəli, cazibəli olmalıdır, fikrinə gəlir və belə nəticə çıxarır ki, yalnız bu halda hər cür, hətta ən mürəkkəb fəlsəfi fikir gənc oxucuya çata bilər:

- Uşağa həyatı tanıtmaq.
- Uşaqların psixoloji ehtiyaclarını qarşılamaq, güvən, sevgi, sevilmə, sevmə, öyrənmə, bir qrupa aid olma, oyun, dəyişiklik və estetiklik kimi keyfiyyətləri aşılamaq.
- Uşaqların dəyişik yaşlarda maraq göstərdikləri məsələləri diqqət mərkəzində saxlamaq.
- Uşağa ədəbi və estetik dəyərləri öyrətmək.
- Uşağı araşdırıcılığa və incələməyə istiqamətləndirməli.
- Məlumatlandırılmalı məsələlər diqqət çəkən şəkildə verilməli, əyləndirici və düşündürücü olmalıdır.
- İnsanı və ətrafdakıları tanıtmalı, yurd sevgisi, insan sevgisi və xeyirxahlıq duyğusu güclü olmalıdır.
- Uşaq ədəbiyyatı uşağın özünü tanımasına və şəxsiyyətinin inkişaf etdirməsində rol oynamalıdır.
- Gənclərin və uşaqların dərs kitablarında olmayan və əldə edə bilmədikləri məlumatların əks olunmasına yer verilməli.
- Uşaqlara dünyagörüşlərini inkişaf etdirən və zənginləşdirən, sosial həyatdakı ehtiyaclarını qarşılamağa istiqamətlənmiş məlumatlar verilməli.
- Uşaq ədəbiyyatı nümunələri təsiredici olmalıdır. Bu da uşaqların daxili aləmləri, təcrübələri ilə bağlı olmalı, uşaqlar onu mənalandıra bilməli və beləcə öz təcrübələrini yeniləşdirməlidir.

Ədalət duyğusu olmalıdır. Günahı olan cəzasını almalı, bir pisliyin cəzası ədalətlə verilməlidir. Bu ədəbiyyat uşaqların qəlbində nəcib hisslər oyadan mənzum və mənsur əsərlərlə işıqlandırılmalı, onların gələcək haqqında gözəl və ümidli arzularına qanad verməlidir. Uşaq ədəbiyyatı uşaqları zəngin, mənəvi və estetik zövqə malik zəmanəsinin ən humanist biliklərinə yiyələnən yetkin bir insan kimi tərbiyə etməlidir. Bu insan öz xalqının mübarizələrlə zəngin

tarixi keçmişinə dərindən bələd olmalı, bu günün tələb etdiyi ideyalarla ayaqlaşmağı bacarmalı, vətənpərvərlik və vətəndaşlıq ideyalarını hər şeydən uca tutmalıdır. Bu ədəbiyyat bəşəriyyətin yaratmış olduğu bütün maddi və mənəvi sərvətləri yeni nəslə öyrətməli,onları bu sərvətin əsl varisi kimi tərbiyə etməlidir (Yusifoğlu R., 2006).

XIX əsrin sonu XX əsrin əvvəllərində söz sənətimizin müstəqil bir sahəsinə çevrilən Azərbaycan uşaq ədəbiyyatı, tarixin müxtəlif mərhələlərində inkişaf etmiş, müxtəlif zaman kəsiyində inkişafdan qalmış və yenidən çiçəklənmişdir. Onun inkişafına mane olan və təkan verən amillər çoxdur. Təşəkkül tapdığı gündən məktəblə sıx əlaqədə olan bu sənət nümunələri, ictimai münasibətlərin məzmunundan asılı olaraq tənəzzül və tərəqqi dövrü keçirmişdir. Uzun müddət ümumi ədəbiyyatın bətnindən qidalanan bu ədəbiyyatın gözəl nümunələrini uşaqlar da böyüklər qədər həvəs və maraqla oxumuşlar. Müdrik və ibrətamiz folklor nümunələri bu ədəbiyyatın bünövrə daşıdır. Xalq müdrikliyini qoruyub yeni bir düşüncə zirvəsinə qaldıran Nizami Gəncəvinin əsərlərində qələmə alınan əhvalatlar uşaqların ən çox sevdikləri ədəbi parçalardır. Gənc oxucular mərdliyi, cəsurluğu, hazırcavablığı «Zalım padşahla Zahidin dastanı», «Kərpickəsən kişinin dastanı», «Sultan Səncər və qarı», «Fitnə» və sair kimi bitkin süjetə, fəlsəfi ümumiləşməyə malik olan bədii parçalardan öyrənirlər. Buna görə də, müstəqil şəkildə yaranıb inkişaf edən Azərbaycan uşaq ədəbiyyatının yaşı 100 il deyil, bəlkə də 800-1000 ildir. Sonrakı dövrlərdə Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Abbasqulu ağa Bakıxanov, Qasım bəy Zakir, Seyid Əzim Şirvani və sair bu kimi qələm sahibləri də gənc oxucuları nəzərdən qaçırmamışlar. Xüsusilə, təmsil janrı və alleqoriya üsulunda yazılan əsərlər Azərbaycan uşaq ədəbiyyatının bünövrə daşları olmuşdur.

Uşaq ədəbiyyatı ümumi söz sənətimizin ayrılmaz tərkib hissəsi olsa da, onun bir sıra özünəməxsus xüsusiyyətləri vardır. Bu xüsusiyyətlər onu böyüklər üçün yazılmış ədəbiyyatdan ciddi şəkildə fərqləndirir.Uşaq deyərkən, əsasən dünyaya yenicə göz açan körpədən tutmuş, 16-17 yaşa qədər olan insan övladı nəzərdə tutulur. Əgər 3 yaşlı uşaqla 12 yaşlı uşaq arasında yaş fərqi mövcuddursa, deməli, bu fərq onlar üçün yaranan ədəbiyyatda da öz əksini tapmalıdır.Görkəmli şairimiz S.Vurğun «Balalarımız üçün gözəl əsərlər yaradaq» adlı məqaləsində yazır: «Düşünmək, duymaq, sevmək, küsüb-incimək, ağlamaq, gülmək, qəzəblənmək... bütün insan xassələri uşaqlıq aləmində mövcuddur...biz uşaqla danışdığımız zaman insanla danışdığımızı, uşaqlar üçün yazdığımız zaman, insan üçün yazdığımızı unutmamalıyıq. Uşaq üçün yazılmış hər bir əsərin əsasında məna gözəlliyi yaşamalıdır» (Xəlil Z., 1987).



Tibb elmi belə bir nəticəyə gəlib ki, uşaq ana bətnində 5-6 aylıq olanda ananın keçirdiyi hissləri o da keçirir: dinlədiyi musiqinin, oxuduğu bədii nümunələrin estetik duyumu uşağa da təsir edə bilir. Ona görə də, uşağı bətnində gəzdirən ana gözəl bədii əsərlər mütaliə etməli, lirik, ahəngdar, duyğulara təsir edə biləcək həzin musiqilər dinləməli, sənətkarlıq baxımından seçilən, ürəkaçan rəsm əsərlərinə baxmalı və beləliklə, öz körpəsinin bədii-estetik tərbiyəsinin özülünü qoymalıdır. Uşaq ədəbiyyatı sadə süjetə əsaslanır. Əgər böyüklər üçün yazılan əsərlərdə süjet xətti şaxələnirsə, bir əhvalatın içərisində başqa əhvalatlar xatırlanıb, obrazın bütöv yaranmasına xidmət göstərirsə, uşaq ədəbiyyatında belə deyildir. Yazıçı hansı yaş üçün yazırsa yazsın, həmin uşağın anlam səviyyəsini, psixologiyasını, hadisələri dərk edə bilmək qabiliyyətini nəzərə alır. Əgər əsər 2-3 yaşlı uşaq üçün yazılırsa, deməli, həmin uşaq kitab oxuya bilmədiyinə görə bu əsəri ona kimsə oxumalıdır. Buna görə də, son dərəcə sadə sözlərdən ibarət olan əhvalat təsvir edilərkən yığcam və bitkin xarakter daşımalıdır. Bu zaman sənətkarlar ritmik şeirlərə üstünlük verirlər. Çünki poetik ritm uşaqların oynaq təbiətinə daha çox uyğundur.Əgər əsər böyük yaşlı uşaqlar üçün yazılırsa, burada təsvir olunan hadisələr bir-birini dinamik şəkildə izləməlidir. Yaxud, uşaq şeirlərində məsnəvi forması daha çox uğur qazanır. Çünki burada misralar qoşa qafiyələnir və beytdə bitkin bir fikir ifadə olunur. Məsələn, görkəmli şairlərimiz M.Ə.Sabir və A.Səhhətin şeirləri buna misal ola bilər. Uşaq ədəbiyyatının

başlıca xüsusiyyətlərindən biri də onun öyrədici olmasıdır. Yazıçı əsəri yazarkən uşağa həyatın müəyyən sirlərini öyrətməyi qarşısına məqsəd qoyur. Bu həm də, onun tərbiyəedici cəhəti ilə bağlıdır. Pedaqoqlar belə bir haqlı fikir irəli sürürlər ki, uşaqlar tərbiyə olunduğunu başa düşən kimi tərbiyəçidən uzaq olmağa çalışırlar. Elə buna görə də yazıçı tərbiyəvi fikirlərini əsərin gözə görünməyən gizli qatlarında verir. Belə ki, «yaxşı nədir, pis nədir» sualının cavabı uşaq ədəbiyyatının dərin qatlarında gizlənir.

Uşaq ədəbiyyatı mövcud həyat və cəmiyyət haqqında ilkin təsəvvürlər yaradır. Burada xeyirlə şərin, çirkinliklə gözəlliyin daimi mübarizəsi və ikincilərin qələbəsi öz əksini tapır. Uşaq ədəbiyyatının müsbət qəhrəmanları nə qədər çıxılmaz vəziyyətə düşsələr də, sonda hökmən qələbə qazanırlar. Bu, uşaq təfəkküründə həyatın əbədiliyi haqqında ilkin təəssürat yaradır, xeyirxahlığın, mərdliyin, doğruluğun əbədi və zəruri olması barədə onların qəlbində ümid çırağı yandırır. Buna görə də, uşaq əsərlərini böyüklər də həvəslə oxuyurlar. Dünya uşaq ədəbiyyatının korifeyləri haqqında belə bir fikir yürüdülür ki, onlar bir yaşından yetmiş yaşa qədər olan insanların yazıçılarıdır. İctimai inkişafın bütün mərhələlərində, heç bir siyasi ideologiyaya mənsub olmayan həqiqi uşaq ədəbiyyatı həmişə eyni estetik prinsiplərə əsaslanmışdır. Uşaq ədəbiyyatının məqsədi balacaların qəlbində həyat eşqi yaratmaq, təbiət və cəmiyyət qanunları ilə onları tanış etmək, pisi yaxşıdan, çirkini gözəldən fərqləndirməkdə onlara kömək etməkdən ibarətdir.  Bu ədəbiyyatın vəzifəsi balacaların qəlbində işıqlı sabaha, böyük gələcəyə inam çırağı yandırmaqdan ibarətdir. Siyasi ideologiyaya bağlanmış, bu səpgidə yazılmış uşaq əsərləri, həmin dövrün ideyalarının əsiri olduğu üçün bir vaxt onun qurbanına çevrilirlər. Uşaq ədəbiyyatında vətən məhəbbəti, insan əməyinə, istedadına və ləyaqətinə ehtiram, təbiət gözəlliklərinə vurğunluq, valideynə, müəllimə, ümumən, böyüklərə hörmət, özündən kiçiklərə mehribanlıq, şəfqət, dostluqda dəyanət kimi keyfiyyətləri əks etdirməlidir. Həqiqi uşaq ədəbiyyatının əbədi qanunlarına əsaslanan, ideologiyanı ədəbiyyatın devizinə çevirən sovet hakimiyyəti dövründə də yazılan bədii uşaq əsərləri həmişəyaşar sənət nümunələrinə çevrilmişdir. S.Marşakın, K.Çukovskinin, A.Bartonun, S.Mixalkovun, S.Vurğunun, R.Rzanın, Ə.Cəmilin uşaq əsərləri bu gün də sevilə-sevilə oxunur. Lakin həmin dövrdə yaranan, o zamanın yüksək mükafatlarını alan bir sıra əsərlər bu gün kimsəyə gərək deyildir. Uşaq ədəbiyyatı ata-anaya, soykökünə, vətən torpağına, ulu əcdadların adətlərinə məhəbbət ruhunu yaşatmalıdır. Xalqın şifahi ədəbiyyatı onun daimi mövzu mənbəyi olmalıdır. Müdrikliyə, qəhrəmanlığa, ədalətliliyə, qorxmazlığa, hazırcavablığa və sair yüksək, ali keyfiyyətlərə malik olan insanlar uşaq ədəbiyyatının baş qəhrəmanları olurlar. Uşaq ədəbiyyatının məqsədi, uşaqları zəngin mənəvi və estetik zövqə malik, dövrünün dünyəvi biliklərinə yiyələnən yetkin bir insan kimi tərbiyə etmək, tarixini, keçmişini dərindən öyrətmək, gələcəyin böyük quruculuq işlərində fəal iştirak etmək istəyi ilə tərbiyə etməkdir. Uşaq ədəbiyyatı bir sıra vəzifələri həyata keçirməlidir: uşaqlar üçün yazılan əsərlər sadə, aydın bir dilə malik olmalıdır. Sadə süjetə əsaslanmalıdır. Çoxşaxəli əhvalatlar, təmtəraqlı ifadələr, pafoslu şüarlar ona yabançıdır. Bir sözlə, uşaq ədəbiyyatının spesifikası yaradıcılıq meyarına çevrilməlidir. Müasir dövrdə kitabxanalar bəşəriyyətin elmi sərvətini toplayıb, qoruyub onları insanların istifadəsinə verməklə elmin, mədəniyyətin və yeniyetmələrin dünyagörüşünün formalaşdırılması, elmin və texnikanın yeni nailiyyətlərini, ətraf aləmdə baş verən təbiət və cəmiyyət hadisələrinin mahiyyətinin dərk edilməsinə uyğun iş aparmaq, respublikamızın həyatında baş verən əlamətdar hadisələrin təbliğinin günün tələbləri səviyyəsində qurmaq kimi mühüm vəzifələri yerinə yetirirlər. Milli-mənəvi dəyərlərimizi özündə əks etdirən uşaq ədəbiyyatına olan qayğı və diqqətin nəticəsi olaraq ədəbi irsimizin qorunmasında ulu öndər H.Əliyevin davamçısı cənab prezident İlham Əliyev "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı imzalamışdır. Bu sərəncama əsasən təkrar nəşr edilən kitablar ölkə kitabxanalarına hədiyyə edilir, bununla da uşaq ədəbiyyatına olan biblioqrafik informasiya tələbatının ödənilməsində əhəmiyyətli rol oynayır. Uşaq ədəbiyyatı hər bir yeniyetmənin, gəncin gələcəyini

müəyyənləşdirir, sənət, ixtisas seçimində, elmin sirlərinə yiyələnməkdə yardımçısı olur. Bundan başqa uşaq ədəbiyyatı uşaqların mütaliə mədəniyyətinin yüksəldilməsinə də öz təsirini göstərir. Uşaqlar bədii ədəbiyyat vasitəsilə keçmişi, bugünkü həyatımızı və inkişafımızı bədii şəkildə öyrənirlər. Ona görə də uşaqların yaş xüsusiyyətlərinə və bilik səviyyələrinə uyğun ən yaxşı əsərlərin təbliğ edilməsi mühüm əhəmiyyətə malikdir. Uşaq əsərlərinin təbliği üçün biblioqrafiyaya böyük ehtiyac vardır. Azərbaycan ədəbiyyatı biblioqrafiyasının əsas qollarından birini uşaq ədəbiyyatının biblioqrafiyası təşkil edir. Uşaq ədəbiyyatının müxtəlif yaşlı oxucular arasında təbliğ edilib yayılması, onun biblioqrafiyasının daha da inkişaf etdirilməsini tələb edir. Uşaq ədəbiyyatının biblioqrafiyası ədəbiyyat təbliğində və şagirdlərin mütaliəsinə rəhbərlikdə ən mühüm vasitə hesab olunur. Müstəqil respubmlikamızda uşaq kitabxanaları tərəfindən həyata keçirilən bütün biblioqrafik işlər, müxtəlif yaşlı uşaqların mütaliəsinə rəhbərlik və ümumi biblioqrafik informasiyanın genişlənməsinə kömək etməklə bərabər, həm də uşaqların mütaliə mədəniyyətinin tərbiyəsi ilə bağlıdır. Gələcəyimiz olan uşaqların, bugünkü məktəblilərin dünyagörüşünün zənginləşməsində, estetik və mənəvi tərbiyəsində, tədris prosesində, onların əxlaqi tərbiyəsində, bir sözlə uşaq və gənclərin formalaşmasında uşaq kitabxanalarının rolu böyükdür. Uşaq kitabxanalarında əsas tərbiyə vasitəsi kitabdır. Bütün şüurlu həyatı boyu insanı müşayiət edən kitab onun etibarlı məsləhətçisi və dostudur, mənəviyyat məbəyidir. Müstəqillik dövründə cəmiyyətimizin bütün sahələrində əsaslı dəyişikliklər getdiyi bir zamanda kitabın rolu və əhəmiyyəti daha da artmışdır. Çünki kitab dövlət quruculuğumuzun alovlu təbliğatçısıdır. Kitab uşaq oxucularının psixologiyasının dəyişməsinə kömək edir, onların formalaşmasının, tərbiyələnmələrinin etibarlı silahıdır.

## 3. NƏTİCƏ

Müasir dövrdə qarşıda duran ən mühüm vəzifələrdən biri hərtərəfli inkişaf etmiş şəxsiyyətlər yetişdirməkdir. Milli şüur və ləyaqətin tarixi kökləri təsdiq edir ki, hər bir xalq, həmçinin Azərbaycan xalqı özünün tarixi şəxsiyyətlərilə öyünməyə mənəvi haqqı vardır. Milli şüurun formalaşmasına müxtəlif amillər təsir göstərir ki, bunlardan da əsası uzun illər respublikamızda formalaşmış uşaq ədəbiyyatıdır. Uşaq ədəbiyyatı bəşəriyyətin yaratmış olduğu bütün maddi və mənəvi sərvətləri yeni nəslə öyrədir, onları bu sərvətin əsl varisi kimi tərbiyə edir. Uşaq ədəbiyyatı - ədəbiyyatın tərkib hissəsi olub, məqsəd və vəzifəsinə görə 17 yaşına qədər müxtəlif oxucu qruplarının təlim, təhsil və əxlaqi-estetik tərbiyəsinə yönəldilən əsərlərə deyilir. (Xəlil Z., 1987).



Oxucuların yaş xüsusiyyətlərini nəzərə alan uşaq ədəbiyyatı, əxlaqi-tərbiyəvi məzmunu ilə bərabər, özünəməxsus mövzu, ideya, dil-üslub xüsusiyyətlərinə də malikdir. Uşaqlar üçün yazmaq olduqca çətindir. Onun özünəməxsus xüsusiyyətləri yazıçıdan fitri istedadla, elmi biliklərə yiyələnməklə yanaşı, uşaq aləmini dərindən öyrənməyi tələb edir. Müxtəlif yaşlı uşaqların maraq dairəsini, estetik zövqünü öyrənmədən, onu müəyyən məqsədə döğru yönəltmək, onun fərdi meylini inkişaf etdirmək olmaz. Məlumdur ki, hər bir insanın müxtəlif xarakterə və məzmuna malik çoxlu informasiya tələbatları ola bilər. Uşaqların biblioqrafik informasiya almaqla bağli olan sənəd tələbatları, maraqları və sorğuları müxtəlifdir. Cəmiyyətdə sənəd tələbatı obyektiv olaraq həmişə var və baş verdiyi dövrün konkret sosial şəraiti ilə şərtləşir. Fərdi tələbat isə fərdin şəxsi xüsusiyyətlərinə görə dürüstləşdirilir. Uşaqların tələbatları maraqları vasitəsilə reallaşır. Maraq tələbatın səciyyəvi mövcudluq formasıdır. Maraq öz növbəsində informasiya istifadəçisində subyektiv şəkildə formalaşan sorğuya çevrilir. Sənəd maraqları və sorğuları sənəd tələbatlarının səciyyəvi mövcudluq formasıdır. Uşaq ədəbiyyatı uşaqların yaş səviyyəsinə münasib bir üslubda yazılır. Pedaqoji təlimə əsasən 17 yaşına qədər olan oxucular dörq qrupa bölünür: I Bağçayaşlı uşaqlar (3-7), II Kiçik yaşlı məktəblilər (7-11), III Orta yaşlı məktəblilər (11-15), IV Yuxarı yaşlı məktəblilər və yaxud gənclər (15-17). Uşaqlar üçün əsər yazan hər bir yazıçı bu bölgünü nəzərə alır (2, 3) Eyni zamanda bilir ki, uşaq ədəbiyyatı oxucuların yalnız yaşı ilə müəyyənləşmir. Burada uşağın

ictimai mühiti, inkişafı, idrakı, zövqü, nitqi, bilik dairəsi də nəzərə alınır. Uşaq oxucularının tələbatlarını və maraqlarını öyrənərkən bu cəhətlərə diqqət yetirilməlidir. Uşaq yazıçısı bu xüsusiyyətləri nəzərə almadan öz əsərinin ünvanını düzgün müəyyənləşdirə bilməz. Uşaq aləminə dərindən bələd olan yazıçı yeniyetmələrin yaş xüsusiyyətləri ilə bağlı tələbləri nəzərə alır. Məzmun və mündəricəsindən, məqsəd və vəzifəsindən göründüyü kimi, uşaq ədəbiyyatı ayrı-ayrı elmlərlə təmasda yaranıb inkişaf edir. Pedaqoqika, psixologiya, etika, estetika, incəsənət, təbabət və dəqiq elmlər uşaq ədəbiyyatında bu və ya digər dərəcədə qovuşur. Bu elmlərsiz uşaq ədəbiyyatı bəsit və məzmunsuz görünərdi. Çünki, gəncliyin hərtərəfli inkişaf etməsində bu elmlərin hər birinin özünəməxsus yeri vardır. Tarixin müxtəlif keçidlərində yaranan uşaq ədəbiyyatı klassik ədəbiyyatın ənənələrini davam etdirməklə xalq həyatını daha dolğun, hərtərəfli işıqlandırmışdır. Beləliklə, uşaq ədəbiyyatı mənəvi-estetik və ideya-məfkurəvi tərbiyə məktəbinə çevrilmişdir. Öz qaynaqlarını əsrlərin dərinliyindən alan Azərbaycan uşaq ədəbiyyatı və rus uşaq ədəbiyyatı bu gün də inkişaf edir, yaradıcılıq salnamələri yaratmağa çalışır.

## ƏDƏBİYYAT

BƏKTAŞİ S. XX əsr uşaq mətbuatında ədəbiyyat. Bakı, 1965.

XƏLİL Z. Azərbaycan uşaq ədəbiyyatı (rus dilində). M., 1987.

MƏMMƏDOV Ə. Azərbaycan uşaq ədəbiyyatı. Bakı, 1977.

YUSİFOĞLU R. Uşaq ədəbiyyatı. Bakı, 2006.

Антология русской литературы. В 6-ти т. т.3., М., ООО «Мир энциклопедий», 2008.

МОМЕТОВ С. Счастливый труд. 1974

Политковская Л. Антология русской детской литературы. В 6-ти т. т.6., М., ООО «Мир энциклопедий», 2009.